UOT 371

**_Xəfayət Müzəffər qızı Əliyeva_**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Naxçıvan Dövlət Universiteti*

# MÖVLANA CƏLALƏDDİN RUMİ YARADICILIĞINDA ƏMƏK VƏ ƏMƏKÇİ İNSANLARIN TƏRƏNNÜMÜ

**_Хаяфят Музаффер гызы Алиева_**
*докторант по программе доктора философии*
*Нахичеваньский Государственный Университет*

# ВОСПЕВАНИЕ ТРУДА И ТРУЖЕННИКОВ В ТВОРЧЕСТВЕ МАВЛАНЫ ДЖАЛАЛАДДИНА РУМИ

**_Khafayat Muzaffar Aliyeva_**
*doctoral student of the PhD program*
*Nakhichevan State University*

# LABOR AND THE GLORIFYING OF LABOR IN THE WORKS OF MEVLANA JALALEDDIN RUMI

**Xülasə.** Məqalədə sözlər dünyasının böyük xaqanı Mövlana Cəlaləddin Ruminin yaradıcılığında insan, əmək, əməyə münasibət görüş və baxışları tədqiqat obyektinə çevrilmişdir. Göstərilir ki, Mövlana əməksevərliyi, əmək adamlarına hörməti bütün yaradıcılığı boyu təqdir və təbliğ etmiş və əməyi şəxsiyyətin formalaşmasına təsir göstərən əsas amillərdən biri kimi təqdir etmişdir. Mövlana yaradıcılığını izlədikcə oxucuya aydın olur ki, zəkasıyla səmalara yüksələn Mövlana Cəlaləddin Rumi, yaradıcılığında əmək fəaliyyətinin zehnə, əqlə, hikmətə, yaradıcılığa, əxlaqa təsir etdiyi qənaətindədir. Xüsusilə, şəxsiyyətin formalaşmasında, fiziki keyfiyyət və bacarıqların inkişafında əmək əvəzsiz rol oynayır. Ona görə də insan yalnız öz halal əməyi, böyük zəhməti sayəsində ali şəxsiyyət kimi formalaşar və beləcə həyatdakı bütün çətinliklərə qalib gəlməklə zirvələrə yüksələ bilər. Məqalədə, eyni zamanda özgələrinin əməyini mənimsəyənləri, məzlumların haqqını çeynəyənləri, bəşərin bağrını qan eyləyən zalımları, qəflət yuxusunda yatanları, avaraları, ədəbsiz kor, daş, çolaqları tənqid atəşinə tutması izah və təhlillər süzgəcindən keçirilmişdir. Məqalədə ilk dəfə olaraq Mövlana Cəlaləddin Rumi yaradıcılığındakı əməklə bağlı mövcud vəziyyət bizim tərəfimizdən müəyyənləşdirilmiş; Mövlana Cəlaləddin Rumi və əmək tərbiyəsi üzrə işin təşkili formaları aşkar edilmiş; Mövlana Cəlaləddin Rumi yaradıcılığındakı halal əmək anlayışında ictimai, pedaqoji-psixoloji, fəlsəfi-sosioloji mahiyyətə bizim tərəfimizdən aydınlıq gətirilmişdir.

***Açar sözlər:*** *Mövlana Cəlaləddin Rumi, əmək və əməkçi insanlara münasibət, əməksevərlik, çalışqanlıq, işgüzarlıq, özgələrinin əməyini mənimsəyən ədəbsiz kor insanlar*

**Резюме.** В данной статье предметом исследования стали взгляды и отношение великого хагана словесного мира - Мевлана Джалаледдина Руми к человеку и труду. Показано, что Мевлана на протяжении всего своего творчества хвалил и поощрял трудолюбие и уважение к трудящимся, а также воспевал труд как один из основных факторов, влияющих на формирование личности. Наблюдая за работой Мевланы, читателю становится ясно, что Мевлана Джалаледдин Руми, возвысившийся до небес своим интеллектом, считает, что трудовая деятельность влияет на ум, интеллект, мудрость, творческие способности и нравственность. В частности, труд играет незаменимую роль в формировании личности, физических качеств и навыков. Таким образом, человек может быть сформирован как высшая личность только через его халяльную работу и тяжелый труд, и, таким образом, он может подняться к вершине, преодолевая все трудности в жизни. В то же время в статье критикуются те, кто злоупотребляет чужим трудом, ущемляет права угнетенных, притесняет кровожадных, и тех, кто спит в невежестве, бродяг, непристойных слепых, хромых. В статье нами впервые определена ситуация связанная с трудом в период творчества Мевланы Джалаледдина Руми, а так же раскрыты формы

организации работы по трудовому воспитанию, прояснили социальную, педагогико-психологическую, философско-социологическую сущность в концепции халяльного труда в произведениях Мевланы Джалаледдина Руми.

***Ключевые слова:*** *Мевлана Джалалуддин Руми, отношение к труду и трудящимся, трудолюбие, трудспособность, непристойные слепые люди, которые присваивают себе труд других*

**Summary.** The great khagan of the verbal world - Mevlana Jalaleddin Rumi's views and attitudes to human and work became the subject of research in this article. It is shown that Mevlana throughout his career praised and encouraged hard work and respect for workers, and also praised work as one of the main factors influencing the formation of personality. Observing Mevlana's work, it becomes clear to the reader that Mevlana Jalaladdin Rumi, who has risen to the skies with his intellect, believes that work in his work affects the mind, intellect, wisdom, creativity and morality. In particular, work plays an irreplaceable role in the formation of personality, physical qualities and skills. In this way, a person can only be formed as a supreme personality through his halal and hard work, and thus, he can rise to the top, overcoming all the difficulties in life. At the same time, the article criticizes those who abuse other people's labor, infringe on the rights of the oppressed, oppress the bloodthirsty, and those who sleep in ignorance, vagabonds, obscene blindness, ignorance. In the article, for the first time, we have identified the situation associated with labour during the period of creativity of Mevlana Jalaladdin Rumi, as well as the forms of organizing work on labor education, clarified the social, pedagogical, psychological, philosophical and sociological essence in the concept of halal labor in the works of Mevlana Jalaladdin Rumi.

***Key words:*** *Mevlana Jalaleddin Rumi, attitude towards work and workers, diligence, hard work, obscene blind people who take over the work of others*

Mövlana Cəlaləddin Ruminin pedaqoji baxışlar sistemində əmək tərbiyəsi ilə bağlı müdrik fikirlər önəmli yerlərdən birini tutur. Peyğəmbərlər dövründən başlayaraq onların həyat tərzini təsvir etməklə bərabər, əmək vərdişlərindən də geniş danışmışdır. Bildiyimiz kimi, keçmiş nəsillər xüsusi məktəb və pedaqoji mühazirə üzü görmədən əməklə tərbiyə olunmuşlar. Buna rəğmən, Mövlana da əməyi, əmək adamlarını və əməksevərliyi "Məsnəvi"sində yüksək qiymətləndirir. Mövlananın əməyə baxış görüşlərini tədqiq və təhlil etməmişdən öncə elmi pedaqogikaya nəzər salaq. Artıq həyatda sübut olunmuşdur ki, şəxsiyyətin formalaşmasında ən mühüm və aparıcı amil əməkdir. Əməkdən, zəhmətdən kənarda insan tərbiyəsindən, adamların mənəvi keyfiyyətindən, bir şəxsiyyət kimi formalaşmasından danışmaq olmaz. Elmi pedaqogikaya nəzər salan zaman görürük ki, əmək tərbiyəsi ümumi tərbiyə işinin əsas sahələrindən biri kimi təhlil edilir və hər bir elmi pedaqogikada vəzifələr – gənc nəsli psixoloji cəhətdən əməyə hazırlamaqdan; Əməyin iqtisadi və sosial həyatda əhəmiyyətini tərbiyə olunanlara başa salmaqdan; insan orqanizmi üzvlərinin normal inkişafında, əxlaqi keyfiyyətlərin və psixoloji proseslərin formalaşmasında əməyin rolunu izah etməkdən; əməyə və əmək adamlarına hörmət hissini, zəhmətə xor baxan tüfeylilərə isə nifrət hissini aşılamaqdan; Vətən, xalq naminə əməkdə iştirak etmək arzusunu formalaşdırmaqdan; əməyin sosial mahiyyətini dərk etməkdən; əməyə yaradıcı münasibəti formalaşdırmaqdan ibarətdir kimi sintez edilir. Əmək tərbiyəsinin anlayışı, məzmunu və yolları baxımından akademik Oruc Həsənli və professor Fərahim Sadıqovun "Tərbiyəşünaslıq" adlı dərs vəsaitində daha dəqiq, daha dolğun və daha orijinal əksini tapmışdır. Müəlliflər həmin dərs vəsaitində əvvəlcə əməyin iqtisadi, sosial, əxlaqi, fizioloji, psixoloji, idrak və tərbiyəvi mənasını açıqlamış, sonra isə əmək tərbiyəsi anlayışını belə izah etmişlər: "Əmək tərbiyəsi anlayışını daha müfəssəl aydınlaşdırmaqdan ötrü ona iki mənada yanaşmaq lazım gəlir: dar və geniş mənada. Dar mənada əmək tərbiyəsi deyəndə hər hansı adamın fərdi fəaliyyəti prosesində sərf etdiyi əməyin nəticəsi, geniş mənada əmək tərbiyəsi deyəndə bir zəhmət tələb edən işə vicdanla yanaşmaqla insanın özünə, ailəsinə və cəmiyyətə fayda verən fəaliyyət prosesi nəzərdə tutulur" [2, s. 185].

Əməksevərliyi, əmək adamlarına hörməti bütün yaradıcılığı boyu təqdir və təbliğ edən Mövlana, əmək fəaliyyətinə ilk növbədə şəxsiyyətin formalaşmasına təsir göstərən əsas amillərdən biri kimi baxmışdır. Mövlana əməyin əhəmiyyətini onun müasir elmi pedaqogikada

qeyd olunan bütün mənalarını (iqtisadi, sosial, əxlaqi, fizioloji, psixoloji, idrak, tərbiyəvi) baxımdan yüksək qiymətləndirməklə yanaşı, daha qabağa gedərək "Zəhmətlər rahatlığın əsasıdır" [1, s. 381] ideyasını irəli sürmüşdür. "Məsnəvi"-də sözün qiymətindən və bu dünyanın hikmətlərindən bəhs edərkən ulu Mövlana insan həyatının əsasını təşkil edən əməklə bağlı fikrini belə ifadə edir: "Buğdanı torpaq altına atarlar, sonra torpağından sünbül edərlər. Onu daha sonra dəyirmanda üyüdərlər; dəyəri artar və cana can qatan çörək olar. Yenə çörəyi dişlərlə çeynəyərlər; ağıl, can və zəka anlayış olar. Yenə o can eşqdə yox olunca, əkindən sonra "Əkinçilərin xoşlarına gələr" olar" [1, s. 234].

Mütəfəkkir şairin əqidəsinə və möhkəm inamına görə belə əmək fəaliyyəti zehnə, əqlə, hikmətə, yaradıcılığa, əxlaqa təsir edir, xüsusilə, şəxsiyyətin formalaşmasında, fiziki keyfiyyət və bacarıqlarının inkişafında əvəzsiz rol oynayır. Ona görə də insan yalnız öz halal əməyi, böyük zəhməti sayəsində ali şəxsiyyət kimi formalaşıb, həyatdakı bütün çətinliklərə qalib gəlib zirvələrə yüksələ bilər. Mövlananın yaradıcılığında elmlə ədəb paralel tərənnüm etdirildiyi kimi, əmək də təsvir edilir. Onun fikrincə, "xəzinəylə dolu olan torpaq"da gizlənmiş sərvəti üzə çıxarmaq üçün əvvəlcə insana elm, sonra isə əmək, zəhmət gərəkdir deyir.

Dərin mənalı sözlər sultanı Mövlananın əmək adamlarına xüsusi rəğbət və hörmətlə yanaşdığını, onların halal əməyini yüksək dəyərləndirdiyini "Məsnəvi"dəki "Ov heyvanlarının aslana təvəkkül etməsini və çalışmağı buraxmasını söyləmələri" adlı birinci dəftərdə daha aydın görürük. Burada şair, əmək adamlarının ümumiləşdirilmiş obrazını ovunu pusub tutan və öz halal əməyi ilə yaşayan aslanın nümunəsində yaratmışdır. Bir gün aslan yenə halalı olacaq ovunu ovlamaq üçün pusqu qurarkən ov heyvanları ona "Səni doyurmaq bizim vəzifəmizdir. Bundan sonra ov üçün gəlmə, bu ot bizə acı olmasın" [1, s. 105] – deyirlər. Burada aslanın ov heyvanlarına cavabı çox ibrətamizdir. Aslan deyir ki, "qulların Rəbbi ayağımızın önünə bir nərdivan qoydu. Addım-addım dama doğru irəliləmək gərəkdir. Burada cəbri (cəbri – zorla gördürülən mənasında – X.Ə.) olmaq xam tamahdır". Ayağın var, özünü necə topal göstərirsən? Əlin var, ovçunu necə gizləyirsən? Əfəndi kölənin əlinə bir kürək verincə danışmadan arzusu bilinər. Kürək kimi əl onun buyruqlarıdır. Sonu düşünmək də onun ifadələridir… Vüsal istəyirsən, bundan sonra qovuşan olarsan. Neməti-nə şükr etməyə çalışmaq qüdrətdir. Sənin cəbir inancın bu neməti inkar etməkdir. Qüdrətə şükr etmək sənin gücünü artırar. Cəbir inancıysa, əlindən neməti çıxarar. Sənin cəbir inancın uyumaqdır; yolda uyuma. O qapını və dərgahı görmədikcə yatma. Diqqət et, ey etibarsız tənbəl!" [1, s. 107-108]. Mövlana burada qazanaraq dolananı Allahın sevdiyi adlandırır. "Təvəkküldən dolayı səbəbdə tənbəl olma" [1, 106] – deyir.

Mövlana əmək dedikdə, həmçinin bu və ya digər maddi nemət istehsal edən fəaliyyəti də nəzərdə tutur. Əlbəttə, bu doğrudur; əmək sərf etmədən heç bir maddi nemət yaradılmasından danışmaq olmaz. "Qulluğun meyvə verməsi üçün zövq gərəkdir; toxumun ağac verməsi üçün əsas gərəkir" [1, 476] – deyən Mövlana hər bir daxili ehtiyacı ödəməkdən ötrü zəhmət çəkməyi, əmək prosesində iştirak etməyi istəyir. Əmək insanı yaratdığı kimi, onun tərbiyəsi üçün də əsas olmuşdur – deyir.

Sözlər dünyasının böyük xaqanı Mövlana insanlar arasında tənbəl və çalışqanların, pis və dəbdəbə ilə yaşayanların həyatına nəzər salaraq, onların güzəranlarının yaxşı-pis olmasını əməkləri ilə əlaqələndirir. Mövlananın fikrincə, insan gəncliyindən əməyə alışmalı, gün doğmadan yerindən qalxıb faydalı əməklə məşğul olmalı, öz məqsədlərini əldə etmək üçün səylə çalışmalıdır. Məhsuldar əməklə yaşayanların həyatını tərifləyərək mədh edir, onları qoçaq, çalışqan, əməksevər adlandırır. Tənbəl olan, yeməkdən doymayanlara isə istehza edərək belə deyir: "Yuxudan və yeməkdən bir az qənaət et. Uyuyanlardan az uyuyan ol; səhərlərdə əfv diləyənlərdən ol. Rüşeym kimi bir az hərəkət et də, sənə işıq görən duyğular bağışlansın" [1, s. 235]. Göründüyü kimi, əmək həmişə insana şərəf və şöhrət gətirmiş, eyni zamanda hörmət və ehtiram mənbəyi kimi özünü büruzə vermişdir.

Mövlana buludu, dumanı insanın alın tərinə bənzədir. Bulud yağışa çevrilib ana təbiət adlandırdığımız dağları, yamacları yaşıllığa qərq etdiyi kimi, insan həyatı üçün zəruri olan maddi və mənəvi nemətlər insanın alın tərinin nəticəsindən yaranır. "Buludlar buğda verər, insanlar

həvəslə onu bişirib bal kimi şirin edər” [1, s. 266]. Mövlana demək istəyir ki, bütün əmək xarüqələrini insan alın təri ilə əldə etmişdir. Bununla bərabər insan təbiətə özünü borclu bilməli, təbiətə uyğun olmalı, onu mühafizə etməli və nemətlərindən şükürlə bəhrələnməlidir. Necə ki, Mövlana özün deyir: “Nemətinə şükr etməyə çalışmaq qüdrətdir” [1, s. 108].

Deməli, ümumtəhsil məktəblərində əmək tərbiyəsini formalaşdırmaq üçün müəllimlər Mövlana Cəlaləddin Rumidən, həmçinin klassiklərimizdən, müasir şair və yazıçılarımızın yaradıcılığından nümunələr gətirməli, məktəbliləri işgüzarlığa, əməyə, halal zəhmətə məhəbbət ruhunda tərbiyə etməlidir.

Gənc nəsildə əməyə məhəbbət hissi aşılamaq qarşıda duran çox mühüm vəzifələrdəndir. Burada söhbət təkcə əmək vərdişi yaratmaqdan getmir. Heç şübhəsiz, əməyə düzgün münasibət yaratmaq mürəkkəb və çətin işdir, ardıcıl şəkildə davam edən prosesin nəticəsində onun formalaşdırılması mümkündür. Hikmətli sözləri ilə əbədi yaşayan Mövlananın əmək tərbiyəsində, bilavasitə iştirak etməsi, ictimai həyatın bütün sahələrinə nüfuz etdiyi kimi, əmək adamlarının həyat tərzinə, qazandıqları müvəffəqiyyətlərə, əmək prosesində bir-birinə göstərdikləri münasibətlərə laqeyd qalmır, onun bədii inikasını verir, ayrı-ayrı dövrlərdə yaşayan əmək adamlarını (Adəm peyğəmbərin, Nuh peyğəmbərin, Musa peyğəmbərin, İsa peyğəmbərin, Məhəmməd peyğəmbərin (s.ə.s.) və başqalarının) bədii inikasın ümumi prinsiplərinə əsasən ümumiləşdirir və böyüməkdə olan nəslə təqdim edir. Mövlananın bədii ümumiləşdirmələrlə ifadə etdiyi qüvvətli deyimlər o qədər güclü təsir kəsb edir ki, oxuyan, yaxud dinləyən adamı ətalətdən uzaqlaşdırır, müəyyən əmək fəaliyyətinə istiqamətləndirir.

Əməksevərliyi, çalışqanlığı, işgüzarlığı, ağır zəhmətdən qorxmamağı, halal əməklə yaşamağı böyük məhəbbətlə tərənnüm edən Mövlana, eyni zamanda insanlıq sifətini itirənləri “özgələrinin əməyini mənimsəyənlər”, “məzlumların haqqını çeynəyənlər”, “bəşərin bağrını qan eyləyən zalımlar”, “qəflət yuxusunda yatanlar”, “avaralar” “ədəbsiz, kor, daş, çolaq” adlandırır. “Ədəbdə müvəffəqiyyət qazanmağı Allahdan istəyək. Ədəbsiz Allahın lütfündən məhrum olmuşdur. Ədəbsiz sadəcə özünə pislik etməz; hətta bütün dünyanı atəşə verər” [1, s. 56] – deyən Mövlana belələrini əxlaq kodeksi daşıyan “Məsnəvi”sində tərbiyələndirməyə çalışmışdır. Tərbiyə ustadı birinci dəftərdə “Həkimlərin cariyənin müalicəsində aciz olduqlarının anlaşılması, padşahın Allahın hüzuruna üz tutması və röyada bir vəlini görməsi”ndə fikrimizi belə təsdiqləyir: “Göydən alım-satımsız və danışıb dinləmədən süfrə gəlməkdəydi. Musanın qövmünün içərisində bir neçə ədəbsiz adam: “Hanı sarımsaq və mərcimək?” – dedilər. Göydən süfrə və çörək kəsildi. Bizə əkin əkmək, qazma və oraq zəhməti qaldı. Musa (Çapda səhvən İsa getmişdir – X.Ə.) təkrar şəfaət edincə Haqq süfrə və boşqabda qənimət göndərdi. Ədəbsizlər yenə ədəbi buraxıb dilənçilər kimi yanlarına yemək aldılar. Musa onlara yalvardı: “Bu sürəklidir və yer üzündən əksilməz”. Böyüyün süfrəsində pis düşüncələrə dalmaq və ehtiras göstərmək küfrdür. Bu rəhmət qapısı hərisliklərindən dolayı bu görməmiş dilənçilərin üzlərinə qapandı” [1, s. 57].

Xalq atalar sözlərində deyilir ki, “Kəsilsin iki əl ki, bir başı saxlamaya” və yaxud “Bikarlıq korluq gətirər”. Mövlana isə deyir ki, “Korların əlindən nə əkin əkib biçmək gələr; nə bina düzəltmək, nə də ticarət və qazanc” [1, s. 176]. Buradan aydın olur ki, Mövlana əməyin sosial mahiyyətini və əhəmiyyətini tərənnüm etmək istəyir. Ədəbsiz adlandırdığı tənbəlləri və müftəxorları yuxarıda qeyd etdiyimiz kimi “kor”, “daş”, “çolaq”, nəfslərinə tabe olmağı bacarmayan adlandırır, onları hərəkətli, çevik olmağa, hər cür çətinliklərə mərdliklə sinə gərməyə, həyatın “daş-kəsəkli” yollarında mətin addımlamağa səsləyir.

Zəkasıyla səmalara yüksələn “Mövlana Cəlaləddin Rumi yaradıcılığında əmək və əməkçi insanların tərənnümü” adlı məqaləyə yekun vurarkən qənaətimizi aşağıdakı şəkildə ifadə etmək istərdik:

– Mövlana Cəlaləddin Rumi yaradıcılığında əməklə bağlı mövcud vəziyyəti müəyyənləşdirmiş;

– Mövlana Cəlaləddin Rumi əmək tərbiyəsi üzrə işin təşkili formalarını aşkar etmiş;

– Mövlana Cəlaləddin Rumi halal əmək anlayışında ictimai, pedaqoji-psixoloji, fəlsəfi-sosioloji mahiyyətə aydınlıq gətirmiş;

– Mövlana Cəlaləddin Rumi əməyə xor baxanları insanlıq sifətini itirənlər, özgələrinin

əməyini mənimsəyənlər, məzlumların haqqını çeynəyənlər, bəşərin bağrını qan eyləyən zalımlar adlandırmış və eyham dolu sözlərlə acılamış;

– Mövlana Cəlaləddin Rumi şəxsiyyətlə zəhmətin ayrılmaz vəhdət təşkil etdiyini, insanın həyatında, əxlaqında, xarakterində zəhmətin misilsiz rol oynadığını düzgün təzahür etmiş və bu həqiqəti müdrik sadəliklə aforizmləşdirmişdir.

**Problemin aktuallığı.** Mövlana Cəlaləddin Rumi yaradıcılığında əmək və əmək adamlarına baxış münasibəti məsələləri böyük ustalıqla əks olunmuşdur.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondadır ki, Mövlana Cəlaləddin Rumi yaradıcılığında əmək və əməkçi insanların tərənnümü məsələləri geniş şəkildə təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Bu məqalənin mövzusu doktorant, dissertant, magistr, tələbəgənclərə əxlaqi-mənəvi dəyərlərin aşılanması üçün mühüm praktik əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1. Mövlana Cəlaləddin Rumi. Məsnəvi. Üç cilddə. I cild (I və II dəftər). Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi. 2012, 504 s.
2. Fərahim Sadıqov., Oruc Həsənli. Tərbiyəşünaslıq. Bakı: Elm və təhsil, 2015, 360 s.

**E-mail:** aliyevaxafayat@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok.* **K.H. Camalov**
*ped.ü.fəls.dok., dos.* **L.Z. Allahverdiyeva**

**Redaksiyaya daxil olub:**11.03.2021